# Bir ömrün işığında




**Görkəmli kimyaçı-alim, ictimai xadim, Azərbaycan Milli Elmlər Akademiyasının və Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, dünyanın bir sıra aparıcı universitetlərinin fəxri doktoru və professoru akademik Abel Məmmədəli oğlu Məhərrəmovun həyat yolu ömürlərə zərrə-zərrə çilənən işığa bənzəyir. Bu işığın hər zərrəsində onun dərs dediyi minlərlə tələbənin, yetişdirdiyi onlarla alimin ömür payı yaşayır. Ən başlıcası onun həyat yolu doğma vətəninə və xalqına sədaqətlə xidmətin parlaq təcəssümü, mənəvi kamilliyin timsalıdır. Bu baxımdan Abel müəllimə həsr olunmuş məqalələr və onun müsahibələri, eləcə də dünyanın bir sıra tanınmış şəxsiyyətlərinin akademik haqqında söylədikləri sözlər böyük əhəmiyyətə malikdir.**

Professor, əməkdar jurnalist Avtandil Ağbabanın hazırladığı "Elmimizin Abeli" adlı kitabda əks olunan məlumatlar, fikir və düşüncələr yalnız Abel Məhərrəmovun fəaliyyəti və elmi yaradıcılığı haqqında deyil, onun Bakı Dövlət Universitetinə rəhbərlik etdiyi illərdə bu ali təhsil ocağının fundamental inkişaf dinamikası əhatəli şəkildə oxucuların diqqətinə çatdırılır. Kitabda toplanmış bəzi məqalələrin başlıqlarına nəzər salsaq, bunu aydın görmək olar: "Elm və ictimai fəaliyyətin vəhdəti", "Gözlənilən bir qələbə haqqında", "Vətəndaşlığın, yaradıcılığın, şəxsiyyətin ziyalı modeli", "Akademik zirvə", "Xoşbəxtlik istedadi" və s. Fərqli aspektlərdən qələmə alınmış məqalələri, verilən müsahibələri, elm və dövlət xadimlərinin, şair və yazıçıların dedikləri sözləri birləşdirən ümumi bir cəhət vardır: səmimiyyət! Səmimiyyət olan yerdə haqq və ədalət, doğruluq və düzgünlük zəfər çalır.

Abel Məhərrəmov görkəmli təhsil işçisi, elm fədaisi və qurucu rektor kimi nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da tanınan böyük nüfuz sahibidir. Müasir düşüncə tərzinə malik geniş erudisiyalı alimin xarakterik cizgiləri kitabda toplanmış materiallarda öz əksini tapmışdır. Bu yazıların bəzilərini portret cizgiləri də adlandırmaq olar. Ən başlıcası isə odur ki, kitab akademik Abel Məhərrəmovun şəxsiyyətini, zəngin mənəviyyatını, iş mexanizmini daha dərindən dərk etməyə yardımçı olur, insanlara, xüsusilə gənc nəslə həssas münasibəti, elmin sirlərinə necə yiyələnməyi öyrədir. Bu baxımdan onun təəssübkeş vətəndaş, azərbaycançılıq ideologiyasını, milli-mənəvi dəyərləri uca tutan ziyalı kimi təqdim olunması tamamilə təbiidir. Həmçinin oxucu Abel müəllimin ata-babalarının və özünün Qərbi Azərbaycanda dəfələrlə ermənilərin məkrli əməlləri ilə üzləşdiyinin, keşməkeşli həyat yollarından şərəflə çıxdığının şahidi olur.

Abel Məhərrəmovun elmi və pedaqoji irsini öyrənənlər, onun yaradıcılıq məktəbini keçənlər, eləcə də geniş oxucu kütləsi üçün bu kitab faydalı mənbədir. Akademik Abel Məhərrəmovun Azərbaycanın elm və təhsil sistemində özünəməxsus yeri və mövqeyi var. Xüsusilə Bakı Dövlət Universitetində həyata keçirdiyi köklü islahatlar, möhtəşəm quruculuq işləri dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilmişdir.

Kitabın ən mühüm hissələrindən biri olan "Məqalələr" bölümünə otuz məqalə daxil edilmişdir. Əslində akademik haqqında qələmə alınan, müxtəlif mətbu orqanlarında çap edilən məqalələrin sayı bu kitabdakından daha çoxdur. Şübhəsizdir ki, gələcəkdə də Abel müəllimin elmi yaradıcılığı, təhsil fədaisi, ictimai xadim kimi fəaliyyətindən və digər istiqamətlərdən bəhs edən yeni-yeni məqalələr yazılacaq, kitablar nəşr olunacaq. Ancaq tanınmış elm adamlarının şəxsiyyəti, elmi irsi, iş üslubu və sair xüsusiyyətlərinə dair bədii, publisistik, elmi-publisistik məqalələr, kitablar az yazılır.

Akademik Abel Məhərrəmov çoxcəhətli fəaliyyəti ilə yalnız elm adamı deyil, həm də yaxşı təşkilatçı və idarəçidir. Cəmiyyətdə isə o şəxslər diqqəti daha çox cəlb edir və sevilir. Abel müəllim həmişə xalqla birlikdə olub, el-obadan özünü ayırmadığına görə, onun haqqında cəmiyyətin ən müxtəlif dairələrini təmsil edən insanlar çeşidli məqalələr çap etdirib, yazılar qələmə alıblar. Bunların arasında görkəmli elm adamlarının, o cümlədən akademiklər Mahmud Kərimovun, Fuad Qasımzadənin, Tofiq Hacıyevin, Vasim Məmmədəliyevin, Bəhram Əsgərovun və başqalarının yazıları ilə yanaşı, universitet tələbələrinin və əməkdaşlarının, mətbuat işçilərinin məqalələri də var. Tanınmış elm adamlarının məqalələrində əsasən akademik Abel Məhərrəmovun elmi irsi, tədqiqatlarının tətbiqi və əhəmiyyətindən bəhs olunursa, müəllim və tələbələrin, müxtəlif peşə sahiblərinin yazılarında isə bir qayda olaraq Abel müəllimin milli-mənəvi keyfiyyətlərindən, onun həyat salnaməsinin ibrətamiz məqamlarından söhbət açılır.

"AVE Print" nəşriyyatında nəfis şəkildə çap olunmuş kitabın redaktoru dosent Fikrət Şiriyevin yazdığı "Ön söz" "Elmimizin Abeli" kitabının məna və məzmunu, akademik A.M.Məhərrəmovun şəxsiyyəti barədə dolğun təsəvvür yaradır. Kitabda əks olunmuş fotoşəkillər bu təsəvvürü daha da dərinləşdirir. Yetmiş illik ömrün müəyyən anlarını əks etdirən bu şəkillər görkəmli şəxsiyyətin parlaq həyat yolunun müxtəlif məqamlarına işıq salır. Doğma xalqının gözündə ucalan bu insan sanki yenidən kəşf edilir, onun ayların, illərin hüdudlarını aşan əməlləri yenidən xatırlanır.

**Gülnar HÜSEYNOVA,**
**Sumqayıt Dövlət Universitetinin Beynəlxalq əməkdaşlıq və strateji layihələr şöbəsinin əməkdaşı.**